# Fransa milyonlarla insanın həyatına qəsd edib

## Rəsmi Paris müstəmləkəçilik siyasətini bu günə qədər davam etdirir

**"Fransanın daxili işlər naziri özünə yaraşmayan müsahibə verib. Nazir Azərbaycanı guya ermənilərə qarşı soyqırımı həyata keçirməkdə ittiham edir".**



Milli Məclisin deputatı Anar İsgəndərov qəzetimizə açıqlamasında deyib ki, ermənilər Qarabağı tərk edərkən heç bir təcavüzə məruz qalmadıqlarını və könüllü şəkildə getdiklərini etiraf ediblər. Hətta ərzaqla, yanacaqla bağlı çətinlikləri olanda Azərbaycan tərəfinə müraciət ediblər və qarşılığını alıblar. Yüzlərlə televiziya kanalı ermənilərin Azərbaycan torpaqlarından çıxıb getmələrini kadra alıb, bunların heç birində Fransanın daxili işlər nazirinin iddialarına aid heç nə yoxdur. "Nazir iddia edir ki, Azərbaycan tərəfi guya Yeni Kaledoniyada yerli əhalinin fransızlara qarşı qızışdırılmasında iştirak edir. Əvvəla, sual yaranır: Fransa niyə Yeni Kaledoniyanı müstəmləkə şəklində saxlayır ki, əhali də ona qarşı çıxır? Hansı demokratik dövlət müstəmləkəçilik siyasətini bu günə qədər davam etdirir?" - deyə deputat əlavə edib.

A.İsgəndərov vurğulayıb ki, Fransa Afrikadakı ölkələri işğal etməklə milyonlarla insanın həyatına son qoyub və yaxud onlara işgəncə verib. Fransanın demokratiyadan danışmağa haqqı yoxdur. Mərakeşdə, Əlcəzairdə qanlı hadisələr törətdiklərinin, öldürdükləri müsəlmanların sayı-hesabı yoxdur. Fransa bununlamı öyünür? Fransanın Azərbaycanla bağlı dedikləri böhtandan başqa bir şey deyil. Bu ölkə Ermənistanı sanki qucağına alaraq onun üçün ağlayır. Azərbaycan torpaqları hesabına Ermənistanı böyütmək istəyir. Əgər ermənilərə bu qədər ürəyi yanırsa, Marsel başda olmaqla öz ərazisindən Ermənistana yer versin.

Deputat vurğulayıb ki, Fransa Azərbaycan cəmiyyətinin artıq ötən əsrin 90-cı illərinin xalqı olmadığını dərk etməlidir: "Bilməlidir ki, bu gün güclü, qalib Azərbaycan var. Azərbaycanın yolu haqq yoludur. Xalq bunu birmənalı olaraq dərk edir. Prezident İlham Əliyev heç bir dövlətin təhdidini qəbul etmir, qəbul etmək fikrində də deyil. Xalq da dövlət başçısının yanındadır və öz rəhbəri ilə fəxr edir".

A.İsgəndərov bildirib ki, Fransa kənardan nə qədər danışsa da, böhtan atsa da, bunların heç bir əhəmiyyəti yoxdur, çünki hamısı qarayaxmadır. Bu gün ermənilər də dərk edirər ki, iki qonşu dövlət arasında münasibətlərin tənzimlənməsi üçün üçüncü tərəfə ehtiyac yoxdur. Hətta vasitəçiyə ehtiyac olarsa belə, Fransa kimi ədalətsiz dövlət bu danışıqlarda iştirak edə bilməz.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2024.- 18 may, № 103.- S.8.